**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**
**Maliyyə və iqtisadi nəzəriyyə kafedrası**

# SİLLABUS

## MALİYYƏ

***( 5 kredit (AKTS))***

***Müəllim haqqında məlumat***


***Müəllim:Ass.İsmayılova Təranə Vidadi qızı***

**Kafedra**: Maliyyə və iqtisadi nəzəriyyə kafedrası, 1-ci mərtəbə, 116

**İş nömrəsi: 268 94 53**

**Mob**:  050 604 50 98

**İş saatları: 8 00 – 16 00**

**E-mail: terane-memmedova-92@mail.ru**


GƏNCƏ-2021

Müəllim əvvəlcədən tələbələrə elektron poçtla məlumat verəcək və ya iş vaxtının yenidən təyin edilməsi zərurəti yarandıqda bu barədə məlumat verəcəkdir.

Bu sillabus kursa aid olan bütün praktiki aspektləri, tələbləri və müddətləri əhatə edən əsas sənəddir. Sənəd tələbələr tərəfindən alındıqdan dərhal sonra hərtərəfli oxumalı və semestr ərzində bu sənədin tələblərinə əməl edilməlidir.

Tələbələr WhatsApp qrupu və ya tələbələrin e-poçt qrupu vasitəsilə müəllimlə əlaqə qura bilərlər. Bu e-poçt ünvanı, elektron məlumatların ötürülməsi üçün tələb olunur, burada tələbələr müəllim tərəfindən təqdim oluna fənləəlaqəli informasiyalarla tanış ola bilərlər.

## *Kurs cədvəli*

Dərslər aşağıdakı zamanlarda əyani qaydada auditoriyalada keçirilir:

Çərşənbə,13:30-14:50 (mühazirə)
Cümə axşamı,15:10-16:30 (seminar)

## *Fənnin təsviri*

Maliyyə elmi anlayış kimi çox böyük tarixə malikdir. Cəmiyyətin inkişafında maliyyənin rolu artıqca, iqtisadiyyatın müxtəlif sahələrini əhatə etdikcə, maliyyənin mahiyyəti haqqında müxtəlif baxışlar formalaşmağa başlamışdır. Maliyyənin mahiyyəti alqı-satqı fəaliyyətləri üçün əsas olan və əmtəə dövriyyəsi prosesində meydana çıxan milli məhulun dəyərinin pul formasında bölgüsü ilə əlaqədardır.

Ölkə iqtisadiyyatında bazar münasibətlərinin genişləndirilməsi ilk növbədə mövcud maliyyə mexanizmin daha sürətlə təkmilləşdirilməsini ən aktual məsələ kimi qarşıya qoyur. Maliyyə elmi respublikanın iqtisadi və sosial inkişafında mühüm rol oynamaqla yanaşı, dünya iqtisadiyyatına geniş formada inteqraiya olunmağa bir başa yol açır. Bütövlükdə maliyyə münaibətləri və maliyyə məsələsi zəif inkişaf etmiş dövlətlərdə sosial-iqtisadi sahələrin inkişafından danışmaq qeyri mümkündür.

Məhz bu baxımdan maliyyə elmi müstəqil surətdə öyrənilməli, onun özünəməxsus forma və üsullarından istifadəsinə geniş imkan yaradılmalıdır. Ümumilikdə maliyyənin aparıcı qüvvəsi ilə ümumi milli məhsulun, milli gəlirin bölgüsü və yenidən bölgüsü, pul vəsaitlərindən ibarət yığım fondunun yaradılması və istifadəsi sistemi formalaşdırılır.

Maliyyə münasibətləri iqtisadiyyatın bütün sahələri ilə qarşılıqlı əlaqədə öyrənilməklə yanaşı istehlak-istehsal və tədarük sahələrinin iqtisadiyyatı, biznes fəaliyyətinin əsasları və onların hüquqi təminatını əhatə edir. Bu elmi öyrənməklə

tələbələr maliyyənin mahiyyəti, vəzifələri, ümumi daxili məhsulun məqsədyönlü bölüşdürülməsi,

dövlətin iqtisadi gücünün artırılması, maliyyə mənbələrinin səfərbər edilməsi və bu istiqamətdə yeni elmi təfəkkürün gücləndirilməsi ilə maliyyə fəaliyyətinin təkmilləşməsinə nail ola bilərlər.

Müasir şəraitdə bazar iqtisadiyyatı maliyyə-dəyər münasibətləri üzərində qurulmuşdur. Maliyyənin öz funksiyaların yerinə yetirməsinin təkrar istehsalın ikinci mərhələsi ilə bağlı olduğunda danışarkən maliyyə münasibətlərinin əhatə dairəsini, onların iqtisadi münasibətlər sistemində təsir istiqamətlərini xüsusi ilə qeyd etmək lazımdır. Nəticədə, maliyyə münasibətlərinin istehsalın mühüm tərkib hissəsi olması qənaətinə gəlmək olar.

Maliyyə elmi bir qayda olaraq digər elmlərlə, xüsusilə də iqtisadi nəzəriyyə, mühasibat uçotu, statistika, hüquq və digər elmlərlə o cümlədən hüquq, sosiologiya, iqtisad, statistika, menecment, kənd təsərrüfatı iqtisadiyyatı, mühasibat uçotu və digər elmlərlə sıx əlaqədə öyrənilir.

***Fənn tələbələrə aşağıdakıları təmin edəcəkdir:***

- maliyyənin predmeti,onun zəruriliyi və həmçinin maliyyə resurslarından istifadənin öyrənilməsi;
- dövlətin maliyyə siyasətində və maliyyə sistemində etdiyi dəyişikliklərin müəyyən edilməsi və maliyyə sisteminin strukturunun aydınlaşdırılması;
- maliyyənin idarə edilməsində öyrədilməsi nəzərdə tutulan əsas hədəflərin təyin edilməsi və həmçinin maliyyə nəzarətinin hansı təşkilati strukturlar tərəfindən icra edildinin öyrənilməsi;
- müəssisələrin(təşkilatların)maliyyəsinin mahiyyəti və təşkili prinsipləri,həmçinin müəssisələrin təşkili formasından asılı olaraq gəlir və xərclərinin,rentabelliyinin hesablanma qaydalarının öyrədilməsi;
- dövlət maliyyəsinin tərkibinin aydınlaşdırılması və dövlətin hər il dəyişən gəlir və xərclərinin bölmələr üzrə həcminin öyrədilməsi;
- dövlət kreditinin mahiyyətinin və həmçinin forma və növlərinin izahı;
- dövlətin daxili və xarici borclarının ətraflı izahı və müəyyən şərtlərinin öyrənilməsi ;
- dövlət büdcəsinin sosial-iqtisadi mahiyyəti,büdcə quruculuöu və bedcənin təsnifləşdirilməsinə dair müzakirəli dialoqların qurulması;
- büdcə gəlirlərinin və büdcə xərclərinin tərkibinin nəzəri və praktiki izahı və büdcə kəsrinin statistik göstəricilərə əsaslanaraq təyin edilməsinə dair biliklərin aşılanması ;

- sığortanın mahıyyəti,onun formalarinın izah edilməsi və sosial sığorta sahəsində edilən yeniliklərin öyrənilməsi və sosial sıöortanın təşkili prinsiplərinin aydınlaşdırılması
- maliyyə bazarı,qiymətli kağızlar bazarının ümümi xarakteristikasının təyin edilməsi və bazar vasitəçilərinin icra etdikləri əsas vəzifələrinin öyrənilməsi.

***Planlaşdırlan təlim nəticələri***

***Fənn tədrisinin sonunda tələbələr aşağıdakıları mənimsəməlidir:***

- dövlətin maliyyə siyasətinin əsas istiqamətlərini öyrənərək müəssisələrin(təşkilatların) maliyyə siyasətinin hazırlanmasında nəzəri bilikləri tətbiq etmək;
- maliyyənin dövlət idarəetmə orqanları sisteminin əsas vəzifələrini ayırd etmək ;
- maliyyə nəzarətinin forma və növlərini ayırd etmək,həmçinin maliyyə nəzarəti orqanlarının səlahiyyətlərini və icra etdikləri işləri öyrənmək ;
- müəssisənin mənfəət və rentabelliyini hesablamağı bacarmaq;
- dövlətin gəlir və xərclərinin hər il statistik göstəricilərini müqayisə etməyi bacarmaq və buna uyğun olaraq büdcə kəsrinin hesablanmasını icra etmək ;
- dövlət kreditinin limitini, həmçinin kreditə uyğun şərt və tələbləri fərqləndirmək ;
- dövlətin daxili və xarici borclarının istifadə məqsədlərini ayırd etmək və borcalan və borclanan subyektləri müəyyən etmək;
- büdcə gəlirlərini hesablamaq və büdcənin qeyri-vergi gəlirlərini öyrənmək;
- büdcə xərclərini müəyyən əlamətlərə görə təsnifləşdirməyi bacarmaq və həmçinin büdcə kəsrini hesablamaq;
- büdcədənkənar fondların gəlir və xərclərini hesablamaq və həmçinin fəaliyyət istiqamətlərini təyin etmək.

*Fənn üçün 60 saat (5 kredit) verilir. Fənn 15 həftəlik bir semestr ərzində tədris olunmaq üçün hazırlanmışdır. Hər həftədə iki saat mühazirə, hər iki həftədən bir dörd saatlıq (2 saatı hər həftə, iki saat isə alt –üst həftə olmaqla )seminar var.*

## 2.2. Fənnin mövzular üzrə planı

| № | Mövzunun adı | Dərs yükünün həcmi (saat) | | |
|---|---|---|---|---|
| | | Cəmi | Mühazirə | Seminar |
| **1** | **2** | **3** | **4** | **5** |
| 1 | Maliyyənin mahiyyəti və funksiyaları | 4 | 2 | 2 |
| 2 | Maliyyə siyasəti.Maliyyə sistemi. | 4 | 2 | 2 |
| 3 | Maliyyənin idarə edilməsi | 4 | 2 | 2 |
| 4 | Maliyyə nəzarəti | 4 | 2 | 2 |
| 5 | Müəssisə və təşkilatların maliyyəsi | 4 | 2 | 2 |
| 6 | Kommersiya təşkilatlarının mənfəət və rentabelliliyi. | 4 | 2 | 2 |
| 7 | Müəssisələrdə investisiyanın maliyyələşdirilməsi və amortizasiya normasının hesablanması | 4 | 2 | 2 |
| 8 | Dövlət maliyyəsi.Dövlət krediti | 4 | 2 | 2 |
| 9 | Dövlət borcları.Dövlət büdcəsi | 4 | 2 | 2 |
| 10 | Büdcə sistemi | 4 | 2 | 2 |
| 11 | Dövlət büdcəsinin gəlirləri və xərcləri | 4 | 2 | 2 |
| 12 | Büdcədənkənar fondlar.Sosial sığorta | 4 | 2 | 2 |
| 13 | Sığorta işinin təşkili | 4 | 2 | 2 |
| 14 | Maliyyə bazarları | 4 | 2 | 2 |
| 15 | Beynəlxalq maliyyə münasibətləri | 4 | 2 | 2 |
| **Cəmi:** | | **60** | **30** | **30** |

***Mühazirənin quruluşu.***

Mühazirə müddəti 80 dəqiqə əyani olaraq auditoriyalarda keçirilir.. Mühazirə zamanı mövzu ilə bağlı qeydlər etmək tələbələrin məsuliyyətidir. Mühazirənin elektron versiyası müəllim və ya universitetin veb saytından əldə edilə bilər.

Mühazirə zamanı slayd materiallardan tez-tez istifadə ediləcəkdir. Eyni zamanda, çətin mövzu hərtərəfli müzakirə ediləcək, aydınlaşdırılacaq və izah ediləcək. Mühazirə

zamanı tələbələr mühazirəçidən qeyri-müəyyən olan materialı təkrarlamasını və ya aydınlaşdırmasını tələb edə bilərlər. Hər bir mövzu üzrə ədəbiyyatın müvafiq siyahısı tədris proqramının son hissəsində verilmişdir. Bundan əlavə, tələbələrin internet resurslarından istifadə etmələri məsləhətdir.

Mövzuya ayrılan saatların 25% -dən çoxunda iştirak etməyən tələbələr imtahana buraxılmırlar (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli qərarı).

## ***Seminar***

Seminar mövzuları və istifadə olunan ədəbiyyat siyahısı əvvəlcədən tələbələrə təqdim ediləcəkdir. Hər seminar üçün iki saat vaxt verilir. Seminarın əvvəlində tələbələrin nəzəri bilikləri təsdiqlənəcəkdir. Hər bir tələbə verilən suallara cavab verməli və mövzunu və onun əsas məntiqini başa düşdüyünü nümayiş etdirməlidir. Cavablar əzbərlənərsə və səthi olarsa, tələbənin fənni mənimsəmədiyi hesab olunur.

Hər tələbədən mövzu ilə əlaqəli bir təqdimat hazırlamaq tələb olunur. 10-15 dəqiqəlik təqdimatlar əvvəlcədən hazırlanmalıdır. 10-15 slayddan ibarət ola bilər. Təqdimatın sonunda nəticələri ümumiləşdirmək lazımdır. Təqdimatdan sonra mövzu bütün auditoriya tərəfindən müzakirə olunur. Tələbələrə əhatə olunan mövzu ilə bağlı test sualları da təqdim olunur. Tələbələr hər dərsdə sual cavabda aktiv iştirak etməli, mövzunu sərbəst, aydın, ardıcıl danışmağı bacarmalıdır.

***Tələbələr üçün tövsiyələr:****Tələbələr auditoriyada fəal iştirak etməyə, sual verməkdən, fikirlərini bildirməkdən və səhv etməkdən çəkinməməlidirlər.*

## ***Sərbəst işlər***

Fərdi tapşırıqlar müəllim tərəfindən təyin olunmuş vaxtda təqdim edilməlidir. Fərdi tapşırıqlar iki səhifədən az olmamalıdır. Fərdi tapşırıqlar tələbənin fəsli tam başa düşdüyü zaman qəbul edilir. Əks təqdirdə, tapşırıq qəbul edilmir və ümumi baldan çıxılır. Fərdi tapşırıqların gec təqdim edilməsi qəbul edilmir və qiymətləndirilmir. Bununla birlikdə, növbəti ayın balları hesablanarkən, yuxarıdakı şərtlər daxilində fərdi tapşırıqlar yenidən təqdim edilə bilər.
Bundan əlavə olaraq, ədəbiyyat icmalı, qrup və ya fərdi şəkildə təqdimatlar, sorğu və müəllimin müəyyənləşdirdiyi digər formada aparıla bilər.

## ***İmtahan***

İmtahan beş sualdan ibarət olacaqdır. Təqdim olunan bal dəyişdirilə bilməz (mexaniki və ya mövzunun hesablanmasında səhvlər istisna olmaqla). Verilən imtahan balı ilə razılaşmırsınızsa, bu məqsədlə Universitet tərəfindən yaradılanApelyasiya komissiyası şikayət edə bilərsiniz. Apelyasiya komissiyası şikayətinizi əsaslı hesab edərsə, sizə yenidən imtahan vermək imkanı verilə bilər.

## ***Qiymətləndirmə***

Kurs qiymətləri aşağıdakı cədvəldə qeyd edildiyi kimi dərsə davamiyyət, fərdi tapşırıqlar, seminar balları və buraxılış imtahanı balları ilə müəyyən ediləcək:

| Fəaliyyət növü | Maksimum qiymətləndirmə | Yekun qiymətləndirmənin %-i |
|---|---|---|
| Dərsə davamiyyət | 10 bal | 10% |
| Fərdi tapşırıqlar (10 mövzu) | Hər sərbəst işə 1 bal | 10% |
| Seminar nəticələri | 30 bal | 30% |
| İmtahan imtahan nəticəsi | 50 bal | 50% |
| Yekun kurs balı | 100 bal | 100% |

***Tövsiyə olunan ədəbiyyatlar***.


1. N.Novruzov, X.Hüseynov – Maliyyə, Bakı – 2007
2. M.M.Sadıqov , S.M.Məmmədov – Maliyyə, Gəncə - 2010
3. M.M.Sadıqov , M.C.Hüseynov, H.H.Həsənov – Kənd təsərrüfatının maliyyəsi, Gəncə - 2011.
4. Bəyalı Ataşov, Nurpaşa Novruzov, Elşən İbrahimov - Maliyyə nəzəriyyəsi , Bakı – 2014.
5. Bəyalı Ataşov Maliyyə Bazarları. Bakı.2016
6. Dr.Arman T. Tevik,Ş Gürman Tevfik, Kurumsal Finansın Temelleri, Beta Basim yayim,2018
7. Thomas Piketty- Best on Income Inequality: Capital in the Twenty-First Century Belknap Press 2021


**Əlavə ədəbiyyat**


1. Richard A.Brealey, “ İşletme Finansının Temelleri”, Literatür Yayıncılık, 2007
2. Niyazi BERK , “ Finansal Yönetim”, Türkmen Kitabevi, 2010
3. M. Ş. Tekbaş, “Temel Finans Matematiği ve Değerleme Yöntemleri”, İstanbul, 2014
4. “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanunu